# GÖYƏRÇİN

İSSN-0207-4710
2012-ci il
11





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# HEYVANLAR VƏ KAPUMBA

*(Bolub-Afrika nağılı)*

Bir dəfə kapumba (qarınqulu) heyvanları çağırıb onlara dedi:

-Sizin aranızda elə bir heyvan varmı ki, məndən çox yesin?

Şir dedi:

-Mən səninlə yemək yarışına çıxmağa hazıram.

Onlar yeməyə başladılar. Yedilər, yedilər, axır ki, şir doydu, kapumba isə öz işində idi. Bunu görən bəbir dedi:

-Mən səninlə yarışıram.

Ancaq o da tezliklə təslim oldu. Bütün böyük heyvanlar kapumbaya uduzdular. Hamı çaşıb qalmışdı. Elə bu vaxt keçi özünü qabağa verib dedi:

-Ey kapumba, heç də lovğalanma. Mən səndən də çox yeyə bilərəm.

Kapumba onu lağa qoydu:

-Bütün güclü heyvanlar mənə uduzdular. Sən heç mənimlə yarışa bilərsən? Heyvanların təkidi ilə onlar yarışa başladılar. Yedilər, yedilər, yedilər... Axşam düşdü. Heyvanlar dedilər ki, qaranlıq düşüb, yaxşısı budur ki, bir mağaraya girib yatın. Sabah yarışı davam etdirərsiniz.

Kapumba ilə keçi bir mağaraya girdilər ki, yatsınlar. Gecənin yarısı yuxudan oyanan kapumba gördü ki, keçi aramsız şəkildə gövşəyir. Kapumba təəccübləndi və fikirləşdi ki, bu mağarada daş, qayadan başqa yeməyə nə var ki, keçi yeyir. Kapumba qorxdu: "Əgər bu daş yeyirsə,



Rəssam İlqar

onunla yarışmaq əbəsdi". Sonra kapumba mağaradan çıxıb başqa bir yerdə yatdı.

Səhər kapumbanın mağarada yox, çöldə yatdığını görən heyvanlar təəccübləndilər:

-Nə üçün mağarada yox, burda yatmısan?

Kapumba dedi:

-Gecə yuxudan ayılanda gördüm ki, keçi iştahla gövşəyir. Soruşdum ki, nə yeyirsən? Cavab verdi ki, daş. Ona görə də qorxudan



çölə çıxdım ki, birdən məni də yemək fikrinə düşər.

Heyvanlar gülüşdülər:

-Keçi sənə qalib gəldi. Bu gündən sonra bizim kapumbamız keçi olacaq. Sən isə artıq adi fildən başqa bir şey deyilsən.

Beləliklə də, mübahisə başa çatdı. Heyvanlar isə dağılıb getdilər.

*Tərcümə edib işləyəni: R.Y.Əliyev*

